Avqust 2014

# PwC Azerbaijan Times

## 5 saylı Buraxılış

***Buraxılışın əsas xəbərləri:***

- **Vergi Məcəlləsinə dəyişikliklər**
- **Mülki Məcəlləyə dəyişikliklər**
- **İcbari sığorta müqaviləsi**
- **Statistik məlumatların verilməsi qaydalarının pozulmasına görə inzibati cərimələr**
- **Qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin dövlət qeydiyyatı**
- **"FATCA" xəbərləri**
- **Əmək müqavilələrinin elektron informasiya sistemində qeydiyyata alınması qaydaları**



Burada əks olunan məlumatlarla bağlı hər hansı bir sual yaranarsa, Marketing və Kommunikasiya məsələləri üzrə Menecer Aysel Süleymanova ilə əlaqə saxlaya bilərsiniz.

aysel.suleymanova@az.pwc.com

**PwC Azərbaycan**

Landmark Ofis Plaza III, 12-ci mərtəbə
90A Nizami küçəsi
Bakı AZ1010, Azərbaycan

Tel: +994 12 497 2515
Faks: +994 12 497 7411

www.pwc.com/az

© 2014 PwC. Bu xəbərdə əks olunan informasiya yalnız ümumi məlumat xarakteri daşıyır və hərtərəfli hüquqi analiz təşkil etmir. Məlumatların dəqiqliyinə və tamlığına dair heç bir zəmanət verilmir. Hər hansı bir nəticəyə gəlib onu tətbiq etməzdən (və ya etməməzdən) əvvəl oxucular öz spesifik məsələləri üzrə mütəxəssislərin məsləhətini almalıdırlar. Oxucuların bu xəbərlərdəki məlumata əsaslanıb hər hansı bir nəticəyə gəlib onu tətbiq etmələrinə və ya hər hansı vacib məqamı nəzərdən qaçırmalarına görə biz heç bir məsuliyyət daşımırıq.

## *Vergi Məcəlləsinə dəyişikliklər*

*Əmlak və Torpaq Vergisi*

Fiziki şəxslər üçün əmlak və torpaq vergisi dərəcələri 20 iyun 2014-cü il tarixli qanunla Parlament (Milli Məclis) tərəfindən qəbul edilmişdir və 1 yanvar 2015-ci il tarixində qüvvəyə minəcək.

Fiziki şəxslərin əmlak vergisi onların mülkiyyətində olan binaların ərazisinə görə hesablanacaq və binanın yerləşdiyi ərazidən asılı olaraq əmlak vergisi dərəcələri bir kvadrat metrə görə 0.1-0.4 AZN arasında dəyişəcək (məs: Bakıda bu bir kvadrat metrə görə 0.4 AZN təşkil edir).

Yaşayış sahələrində əmlak vergisi 30 kvadratmetrdən artıq olan sahənin hər kvadratmetrinə görə hesablanacaq. Bina Bakı şəhərində yerləşdikdə, həmin dərəcələrə minimum 0.7 və maksimum 1.5 həcmində əmsallar tətbiq olunacaq.

Kənd təsərrüfatı torpaqları istisna olmaqla, torpaq sahəsinin 100 kvadrat metrinə görə tətbiq edilən torpaq vergisi dərəcəsi torpağın təyinatından və onun yerləşdiyi ərazidən asılı olaraq 0.1-20 AZN məbləğində dəyişəcəkdir.

## *Mülki Məcəlləyə dəyişikliklər*

3 iyun 2014-cü il tarixində Azərbaycan Respublikasının Prezidenti 386 saylı Fərmanına aşağıdakı dəyişiklikləri və əlavələri etmişdir:

- Ünvan reyestrinin aparılması və daşınmaz əmlak obyektlərinə ünvanların verilməsi qaydaları Azərbaycan Respublikası Prezidenti tərəfindən müəyyən edilir.

• Hüquqi şəxslərin ləğv edilməsi zamanı ləğvetmə komissiyası dövlət büdcəsinə məcburi ödənişlər və dövlət sosial müdafiə fonduna ödənişlər üzrə borcun müəyyən edilməsi üçün Vergilər Nazirliyinə və Dövlət Sosial Müdafiə Fonduna müraciət edir.

• Hüquqi şəxslərin ləğv edilməsi zamanı ləğv olunan hüquqi şəxsin təsisçisi və ya onun varisi olmadıqda, ləğv olunan hüquqi şəxsin mülkiyyəti dövlətin tabeliyinə keçir və Əmlak Məsələləri üzrə Dövlət Komitəsi tərəfindən qəbul edilir.

• Azərbaycan Respublikasında hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında məlumat aşağıdakı mətbu nəşrlərdə dərc edilir:

- qeyri-kommersiya hüquqi şəxslər və təhsil müəssisələri haqqında məlumat — «Ədliyyə» qəzetində

- dini qurumlar haqqında məlumat — «Cəmiyyət və din» qəzetində

- kommersiya hüquqi şəxslər haqqında məlumat — «Vergilər» qəzetində.

## İcbari sığorta müqaviləsi

İcbari Sığortalar haqqında Qanuna uyğun olaraq istehsalat zamanı iş qabiliyyətinin itirilməsi və əmək xəstəliklərə qarşı icbari sığorta müqaviləsi sığortaedənin müraciəti əsasında yazılı formada bağlanılır.

Maliyyə Nazirliyi 30 iyun 2014-cü il tarixli # Q-14 nömrəli qərar əsasında icbari sığorta müqaviləsinin məzmunu və formasını təsdiqləmişdir.

## Statistik məlumatların verilməsi qaydalarının pozulmasına görə inzibati cərimələr

Statistika müşahidələrinin keçirilməsi üçün zəruri olan məlumatların təqdim edilməməsinə və ya vaxtında təqdim edilməməsinə, yaxud hesabatların təhrif edilməsinə görə inzibati cərimə 300 AZN-dən 700 AZN-dək artırılmışdır (qanun 16 iyul 2014-cü il tarixindən qüvvədədir).

## Qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin dövlət qeydiyyatı

Nazirlər Kabineti "qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin dövlət qeydiyyatı" ilə bağlı qaydalara əlavə və dəyişikliklər edilməsi barədə 6 iyun 2014-cü il tarixli 184 və 185 nömrəli qərarlar qəbul etmişdir.

• Xarici dövlətlərin QHT-lərinin filial və ya nümayəndəliklərinin dövlət qeydiyyatı ilə bağlı tələb olunan Ədliyyə Nazirliyi ilə sazişdə onun qüvvədə olma müddəti göstərilməlidir.

• Qeyri-hökumət təşkilatının illik maliyyə hesabatının forması, məzmunu və təqdim edilməsi qaydaları xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəliklərimə də tətbiq olunur.

• Qeyri-hökumət təşkilatının illik maliyyə hesabatının forması, məzmunu və təqdim edilməsi qaydalarında göstərilir ki, illik maliyyə hesabatlarını vaxtında təqdim etməyən qeyri-hökumət təşkilatları, onların filial və nümayəndəlikləri inzibati məsuliyyət daşıyırlar.

## "FATCA" xəbərləri

Vergilər Nazirliyi "FATCA"-nın tətbiqi məqsədilə Vergilər Nazirliyinin İnternet səhifəsinə www.taxes.gov.az aşağıdakıları daxil etmişdir:

• "FATCA"-nın tətbiqi ilə bağlı istifadəçi təlimatı – 10 iyul 2014-cü il tarixində daxil edilmişdir.

• "FATCA" portalında qeydiyyatdan keçmək üçün video təlimat – 8 avqust 2014-cü il tarixində daxil edilmişdir.

"FATCA" tələblərinə riayət etmək üçün Milli Məclis bir neçə qanun qəbul etmişdir:

*Vergi Məcəlləsinə dəyişiklik*

Aşağıdakı iki maddə Vergi Məcəlləsinə əlavə edilmişdir və 12 iyul 2014-cü il tarixdə qüvvəyə minmişdir:

• Maddə 76.2-1: banklar və bank əməliyyatlarının ayrı-ayrı növlərini həyata keçirən kredit təşkilatları Azərbaycan Respublikası ilə digər dövlətlər arasında bağlanmış beynəlxalq müqavilələrə uyğun olaraq, bu dövlətlərin hüquqi və fiziki şəxslərinin Azərbaycan Respublikası ərazisində həyata keçirdikləri maliyyə əməliyyatları barədə məlumatları müvafiq icra hakimiyyəti orqanının (yəni, Azərbaycan Respublikası Nazirlər Kabineti) müəyyən etdiyi hədlərdə və qaydada müvafiq icra hakimiyyəti orqanı (yəni, Azərbaycan Respublikası Vergilər Nazirliyi)vasitəsilə həmin xarici dövlətlərin səlahiyyətli orqanlarına təqdim etməlidir.

• Maddə 60.1.4: banklar və bank əməliyyatlarını həyata keçirən kredit təşkilatları yuxarıda qeyd olunan hesabat tələblərini icra edə bilmədikdə, aparılmış əməliyyatın ümumi məbləğinin 30 faizi miqdarında, bu hesablar üzrə əməliyyat aparılmadıqda isə hər belə hesab üçün 400 manat məbləğində maliyyə sanksiyaları tətbiq ediləcək.

*Banklar haqqında Qanun, Fərdi Məlumatlar haqqında Qanun və Sığorta Fəaliyyəti haqqında Qanun*

Banklar haqqında Qanun və Fərdi Məlumatlar haqqında Qanuna müvafiq olaraq aşağıdakı redaksiyada 41.2, 13.2-1 və 6.2.10-cu maddələr əlavə edilmişdir (bütün maddələr 13 iyul 2014-cü il tarixində qüvvəyə minmişdir):

"Azərbaycan Respublikası ilə digər dövlətlər arasında bağlanmış beynəlxalq müqavilələrə uyğun olaraq, bu dövlətlərin hüquqi və fiziki şəxslərinin Azərbaycan Respublikası ərazisində həyata keçirdikləri maliyyə əməliyyatları barədə məlumatlar Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi hədlərdə və qaydada birbaşa və ya Azərbaycan Respublikası Vergilər Nazirliyi vasitəsilə həmin xarici dövlətlərin səlahiyyətli orqanlarına verilir."

## Əmək müqavilələrinin elektron informasiya sistemində qeydiyyata alınması qaydaları

"Əmək müqaviləsi bildirişinin forması və onun elektron informasiya sisteminə daxil edilməsi qaydaları, əmək müqaviləsi bildirişinin qeydiyyata alınması ilə bağlı işəgötürənə göndərilən məlumat forması, habelə qeydiyyata alınmış əmək müqaviləsi bildirişinin məlumatlarını real vaxt rejimində əldə etməklə bağlı Qaydalar" haqqında Nazirlər Kabinetinin 6 iyun 2014-cü il tarixli, 183 nömrəli Qərarı 13 iyun 2014-cü il tarixindən qüvvəyə minmişdir. (bax: PwC Times Issue #1, 2014, yanvar buraxılışı)

Qaydalarda əmək müqaviləsi bildirişinin forması, onun elektron informasiya sisteminə daxil edilməsi prosesi və s. müəyyən edilir. Bu qaydalara əsasən işəgötürən əmək müqaviləsinin bağlanılmasının, onda dəyişiklik edilməsinin və ya xitam verilməsinin elektron qaydada qeydiyyata alınması məqsədi ilə məlumatları Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron sisteminə daxil etməlidir. Bu sistem artıq elektron hökumət portalına qoşulmuşdur və sistemə daxil olmaq üçün elektron imza və ya ASAN imza kimi elektron autentifikasiya vasitələrinin istifadəsini tələb edir. Əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil edilməsi işəgötürənin özü və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən həyata keçirilə bilər.

Elektron informasiya sistemi 1 iyul 2014-cü il tarixində işə salınmışdır. İşəgötürənlər iyulun 1-dən sonra bağlanmış əmək müqavilələrini dərhal sistemdə qeydiyyata salmalıdırlar. İyulun 1-dən əvvəl bağlanmış əmək müqavilələri də sistemə daxil edilməlidir.